Tarix və onun problemləri, № 4 2012

**SÜLEYMANOV NIZAMI**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Azərbaycan tarixi" kafedrasının dosenti*
*suleymanovnizami@mail.ru*

# SƏFƏVI -VENESIYA TICARƏT ƏLAQƏLƏRI

Açar sözlər: Venesiya, Səfəvi, Hələb, Aralıq dənizi, ticarət, mahal, ipək, bazar, tacir.
Ключевые слова: Венеция, Сефевид, Алеппо, Средиземное море, коммерция, округ, шелк, рынок, купец.
Keywords: Venice, Safavid, Aleppo, Mediterranean, trade, district, silk, market, merchant.

Hələ XV yüzillikdə Şərq ölkələrinin, o cümlədən Azərbaycanın ticarət məhsulları Hörmüz — Təbriz — Trabzon — Kəffə və Hörmüz — Təbriz — Toqat — Bursa — İstanbul yolu ilə Qərbi Avropaya ixrac olunurdu. İstanbul, Bursa, Trabzon, Kafa bazarlarında Şərq mallarının əsas alıcısı olan Venesiya tacirləri həmin məhsulların Qərbi Avropa bazarlarında bölüşdürücüsü kimi də çıxış edirdilər. Venesiya tacirlərinin həmin yollarla Qərbi Avropa ölkələrindən gətirdikləri mallar isə əsasən Təbriz bazarına daxil olaraq buradan digər Şərq ölkələrinə ixrac edilirdi [1, s.10-12]. 1453-cü ildə Konstantinopolun türklər tərəfindən fəthindən sonra Aralıq dənizi və Qara dəniz hövzəsindən tranzit ticarət yollarının Osmanlı dövlətinin nəzarətinə keçməsi, müxtəlif vaxtlarda sultanların yeritdiyi gömrük siyasəti və başqa amillər Azərbaycanın həmin dəniz yolu vasitəsilə Qərbi Avropa ölkələri ilə iqtisadi əlaqələrinə təsirsiz qalmamışdı.

Qeyd etmək lazımdır ki, XV əsrin ikinci yarısı — XVI yüzillikdə Hələb, Şam, Beyrut şəhərləri Qərbi Şərqlə bağlayan əsas ticarət mərkəzlərinə çevrilmişdi. Şərq və Qərb mallarının Təbriz və Venesiya tacirləri arasında alqı-satqısı artıq bu şəhərlərdə, ilk növbədə Hələbdə həyata keçirilirdi. Şərqlə Qərbi Avropa ölkələri arasındakı mal dövriyyəsində qarşılıqlı tələbat malları üstünlük təşkil edirdi. Səfəvi ölkəsindən Avropa ölkələrinə xam ipək, tumac, şaqren (yumşaq dəri), Təbriz, Kirman və Məşhəddə yetişdirilən dəvə və qoyun yunu, sandıq və kitab cildləmək üçün dəri, müxtəlif zərli parçalar, Gilanda toxunmuş zərif ipək parçalar, xalçalar, saxsı qablar, zərif həsirlər, ənbər (ətir), gümüş və qızıl məmulatları, qiymətli daş-qaşlar, xüsusilə firuzə ixrac edilirdi [2, s.80]. Azərbaycan Səfəvi dövlətinə Qərbi Avropa ölkələrindən müxtəlif rəngli mahud, zərif yun və ipək parçalar, güllü mahud parçalar, qurğuşun və qalay, çılçıraq, iti qılınclar, qol və divar saatları, müxtəlif büllur qablar, stəkan-nəlbəki, gümüş sikkələr və s. gətirilirdi [2, s.80]. İtaliya, İngiltərə, Hollandiya və Fransadan gətirilən mallar içərisində mahud və toxuculuq malları üstünlük təşkil edirdi. İtaliyanın Venesiya Respublikasından güzgü və pəncərə şüşəsi, bəzək əşyaları; Fransadan qənd, şərab, yazı kağızı və s. idxal olunurdu. «Londra» adlanan ingilis mahuduna Səfəvi ölkəsində tələbat daha böyük idi [3, s.289-290].

Qeyd etmək lazımdır ki, beynəlxalq tranzit ticarət yolları Səfəvi dövlətindən keçdiyindən, Avropadan buraya gətirilən malların bir hissəsi Hindistana və Şərq ölkələrinə göndərilirdi.

XVI—XVII yüzilliklərdə Səfəvi dövlətinin daha çox siyasi və iqtisadi əlaqələr saxladığı Qərbi Avropa ölkələrindən biri Venesiya Respublikası idi. Səfəvi dövlətinin Qərbi Avropa ölkələri, o cümlədən Venesiya ilə qarşılıqlı iqtisadi əlaqələri sabit səciyyə daşımamış, hərbi-siyasi hadisələrin təsiri nəticəsində və beynəlxalq vəziyyətdən asılı olaraq müxtəlif

Tarix və onun problemləri, № 4 2012

dövrlərdə gah güclənmiş, gah da zəifləmişdi. Qeyd etmək lazımdır ki, XV əsrin ikinci yarısında Qara və Aralıq dənizləri sahillərindəki bir çox limanların Osmanlı dövləti tərəfindən tutulması və Hindistana okeanlarından keçən su yolunun kəşf olunması nəticəsində Asiyanı Avropa ilə bağlayan ənənəvi karvan yollarında ticarət zəifləmişdi. Digər tərəfdən Şah İsmayılın Azərbaycanın ayrı-ayrı bölgələrində, Xorasanda və Osmanlı sərhədlərində apardığı savaşlar ölkənin əsas ipək ticarəti mərkəzlərində əmin-amanlığı pozmuşdu. Nəticədə Təbriz, Sultaniyyə, Xorasan və başqa şəhərlərdə ticarətlə məşğul olan venesiyalılar Avropaya qayıtmağa məcbur olmuşdular [4, s.1931]. Buna baxmayaraq, I Şah İsmayılın dövründə (1501-1524) Venesiyadan Səfəvi sarayına elçi və tacirlər gəlib-gedirdilər. Səfəvi ölkəsinə gəlmiş naməlum Venesiya taciri 1507-ci ildə Ərzincanda dörd gün Şah İsmayılın ordu düşərgəsində qalmış, şahın Şirvan yürüşünə qatılmış və dəfələrlə Təbrizdə rəsmi dövlət məclislərində iştirak etmişdir. Türk, ərəb və fars dillərinə mükəmməl bələd olan naməlum Venesiya tacirinin öz hökumətinə yazdığı hesabatdan aydın olur ki, o, Səfəvi dövləti ilə qarşılıqlı siyasi və iqtisadi əlaqələr haqqında uzun müddət danışıqlar aparmış və 1520-ci ildə Təbriz şəhərini tərk edib, vətəninə qayıtmışdı [5, s.348-350,430].

Bir müddət sonra Səfəvi ölkəsində olmuş başqa bir ingilis taciri Artur Edvards da Hələb şəhərinin Venesiya ilə Səfəvilər arasında ticarət əlaqələrində oynadığı rola diqqət yetirmişdi. A.Edvardsa görə, Culfa tacirləri Hələbə 500 tay ipək aparıb, əvəzində oradan 18 min top Venesiya mahudu alıb gətirirdilər [7, s.211]. Venesiya tacirləri İtaliya mahudu ilə yanaşı Qərbi Avropa ölkələrində istehsal edilən mahud parçaları alıb, Hələb bazarına çıxarır və bunun çox hissəsini oradakı Səfəvi tacirlərinə satırdılar.

XVI yüzilliyin 60-70-ci illərində Venesiya tacirlərinin Qərbi Avropa ilə Şərq ölkələri arasında vasitəçiliyi İngiltərəni çox narahat edirdi. Səfəvi ölkəsində olan ingilis tacirlərindən Lores Çepmen 1569-cu ildə Londona göndərdiyi məktubda yazırdı ki, Təbriz şəhərində çoxlu qarazeyi (qaba mahud növü) və mahud ehtiyatı gördüm və onu bura şəhərdə daimi yaşayan türklər Hələbdən, təbrizli tacirlər isə Venesiyadan gətirirlər [6, s.146]. L.Çepmen əvvəl yazdığı başqa bir məktubunda da Təbriz tacirlərinin Venesiyaya gedərək, oradan mahud alıb gətirməsi haqqında məlumat vermişdi [6, s.140].

1587-ci ildə hakimiyyətə gəlmiş Şah Abbas tərəfindən daxili ziddiyyətlər aradan qaldırıldıqdan sonra ölkədə siyasi sabitlik yaranması Azərbaycan Səfəvi dövlətinin Asiya və Avropa ölkələri ilə ticarət əlaqələrini canlandırmışdı. Venesiya Respublikası Səfəvi ölkəsinə, onun Təbriz, Rəşt, Ərdəbil və İsfahan kimi ipək ticarəti mərkəzlərinə yenidən öz ticarət nümayəndələrini göndərməyə başlamışdı. İran tarixçisi Nəsrullah Fəlsəfi Şah Abbasın xristian tacirləri və elçiləri üçün öz məmurları vasitəsilə çox rahat və təhlükəsiz şərait yaratdığını qeyd etmişdir [4, s.1937-1938]. Danışılan dövrdə əcnəbi tacirlərin dövlət səviyyəsində himayə olunması və qorunması xarici iqtisadi əlaqələrin inkişafına təkan verən əsas amillərdən idi.

I Şah Abbasın hakimiyyəti dövründə Səfəvilərlə Venesiya arasında iqtisadi-ticarət əlaqələri dövlət səviyyəsində aparılmağa başlanmışdı. İki dövlət arasında diplomatik danışıqların və yazışmaların əsas mövzusunu ticarət əlaqələrinin yaradılması və genişləndirilməsi təşkil edirdi. I Şah Abbas elə hakimiyyətə gəldiyi hicri 994 (1586-1587)-cü ildə Venesiya dojuna göndərdiyi məktubda yazırdı: «Xasseyi-gərəkyaraq Xacə Şahsuvar, Hacı Əvəz Təbrizi, İmad və başqaları Sizin hüzurunuza varid olan kimi öz məmurlarınıza göstəriş verəsiniz ki, onlar Xasseyi-şərifəyə lazım olan malları tezliklə alıb geri qayıda bilsinlər... Siz alicənabın ölkəmizdəki hər hansı mala ehtiyacı olsa, dostluq naminə buyuracaqsınız. Elə edin ki, aramızdakı mehribançılıq gündən-günə güclənsin» [8, s.466].

I Şah Abbas Avropa ölkələri, o cümlədən Venesiya ilə diplomatik və iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı idi. 1599-cu ildə ingilis elçisi Antoni Şerli və Hüseynəli bəy

Bayatın başçılığı ilə Avropaya göndərdiyi nümayəndə heyəti digər ölkələrlə yanaşı Venesiyada da danışıqlar aparmalı idi. N.Fəlsəfiyə görə, bu, şah Abbas tərəfindən Venesiyaya göndərilən ilk diplomatik heyət idi. Osmanlı səfiri ilə diplomatik və iqtisadi sahədə çox mühüm danışıqlar aparıldığını bəhanə gətirən Venesiya hökuməti Səfəvi elçilərini qəbul etməkdən boyun qaçırdığından, bu missiya uğursuz olmuşdu [9, s.171; 4, s.1935].

Qeyd etmək lazımdır ki, XVII yüzilliyin əvvəllərindən bu iki ölkə arasında diplomatik və qarşılıqlı iqtisadi əlaqələr daha da genişlənməyə başlamışdı. I Şah Abbas 1603-cü ildə Fəthi bəyin (Xoca Fətullah) başçılığı ilə 12 nəfərlik nümayəndə heyətini Venesiyaya göndərmişdi. Nümayəndə heyəti vətənə dönəndə Səfəvi — Osmanlı müharibəsi başladığından, elçilər Suriyada yaxalanmışdı. Elçilərin Venesiyadan aldığı mallar və dojun şaha göndərdiyi hədiyyələr isə müsadirə edilmişdi [10, s.53-54]. N.Fəlsəfi isə bu hadisəni bir qədər fərqli təsvir edərək yazır ki, hicri 1017-ci ildə Şah Abbasın xüsusi xidmətçisi Xoca Fəthi Venesiyaya apardığı ipəyi satıb, Avropa parçaları, cəvahirat və başqa mallar alaraq Kiçik Asiya yolu ilə geri qayıdanda yeni Səfəvi — Osmanlı savaşının başlanması haqqında məlumat almış, çarəsiz qalıb aldığı malları geriyə — Venesiyaya qaytarmışdı. Əliboş geri dönən Fəthi bəy başına gələn hadisə haqqında I Şah Abbasa məlumat vermişdi. Həmin səfirlikdən bir qədər sonra I Şah Abbas Venesiyaya yola saldığı Xosa Xieosa şah sarayı üçün lazım olan malların alınmasını tapşırmışdı [4, s.1964].

Bununla belə, I Şah Abbasın dövründə Osmanlılarla aparılan savaşların beynəlxalq karvan yollarında yaratdığı maneə və çətinliklərə baxmayaraq, Səfəvi — Venesiya qarşılıqlı ticarət əlaqələri kəsilmirdi. I Şah Abbasın Venesiyaya göndərdiyi Xoca Səfər adlı bir tacir Hələb şəhərindəki Venesiya konsulu Covanni Françesko Saqredoya şahın məktubunu çatdırmışdı. Konsul Saqredo Venesiya dojuna yazdığı məktubda I Şah Abbasla dostluq xatirinə onun elçisi Xoca Səfərə ticarət işlərində hər cür kömək göstərməyi xahiş etmişdi. Məktubun məzmunundan aydın olur ki, Xoca Səfərə şaha məxsus olan 50 tay ipəyin axtarılıb tapılması tapşırığı da verilmişdi. Şah həmin ipəyi bir qədər əvvəl yəhudi Ancello Qradeniçlə Venesiyaya satmaq üçün göndərmiş, ancaq yəhudi taciri ipəyi oğurlayaraq mənzil başına çatdırmamışdı [4, s.1964; 10, s.54].

Şah Abbas Xoca Səfərlə Venesiya dojuna göndərdiyi məktubda yazırdı: «Xoca Səfəri göndərdik ki, orada xasseyi- şərifəyə aid olan malları ona təhvil verəsiniz ki, Səfəvi məmləkətinə gətirsin» [8, s.462]. Məktubda xahiş edilirdi ki, həmin malların siyahısı tərtib olunsun və bu siyahı Venesiyanın yüksək rütbəli məmurları tərəfindən möhürlənib təsdiq edilsin. Şah Abbas məktubunda malları Xoca Səfərdən həmin sənəd əsasında təhvil götürəcəyini bildirmişdi. Məktubun sonunda şah yazırdı: «... Avropa kral həzrətləri kimi bizimlə həmişə dostluq və mehribanlıq qaydalarına əməl edib, tacirlər göndərməklə aramızda səmimiyyət olsun. Və bu diyarda hər hansı bir işiniz olsa, xəbər göndərin yerinə yetirək» [8, s.462]. Şah Abbasın verdiyi tapşırığa görə Xoca Səfər Xoca Fətullahın Venesiyaya qaytardığı malları da Səfəvi ölkəsinə gətirməli idi. Şah onunla İspaniya kralına, Roma papasına və Toskana dojuna məktublar göndərmişdi. Venesiyadan sonra İspaniya, Roma və Toskanada olan və bu haqda I Şah Abbasa məlumatlar göndərən Xoca Səfər 1619-cu ildə dəniz yolu ilə Hindistana gəlmiş, ancaq naməlum səbəblərə görə İsfahana qayıtmamışdı [4, s.1964].

Maraqlıdır ki, Venesiya ilə ticarət əlaqələrində belə xoşagəlməz hallara, elçi və tacirlərin fırıldaqlarına az təsadüf edilmirdi. Bu haqda fransız elçisi Tavernyenin qeydləri də maraq doğurur. Onun yazdığına görə, I Şah Abbas İsfahanın mötəbər tacirlərindən birinin oğluna xeyli miqdarda ipək verib, satmaq üçün Venesiyaya göndərmişdi. Həmin cavan tacir Venesiyada gözəl bir bina almış və eyş-işrətə qurşanmışdı. Onun belə həyat tərzi keçirməsi hətta Venesiya Senatının diqqətini çəkmiş, bu qədər ipək və digər ticarət mallarının bir

nəfərə məxsus olması Senat üzvlərini təccübləndirmişdi. Senat böyük bir şirkətin nümayəndəsi zənn edilən bu cavanın bu qədər kapitalı necə əldə etməsi haqqında məlumatlar toplamağı Şərq ölkələrindəki konsulluq və nümayəndəliklərinə tapşırmışdı. İzmir və İstanbul konsullarından bir məlumat ala bilməyən Venesiya Senatına Hələbdən belə məzmunda məktub gəlmişdi ki, həmin cavan İran (Səfəvi) padşahının nümayəndəsidir və onun kapitalı İran (Səfəvi) şahına məxsusdur [11, s.403].

Tavernye daha sonra yazırdı ki, Senat Məclisi həmin cavan taciri həbsə alıb, qalan malları müsadirə etmiş və bu haqda I Şah Abbasa məktub göndərmişdi. Şah Abbas 1627-ci ildə Hindistandan Sultaniyyə şəhərinə gələn və Venesiyaya getmək istəyən Antoniur (Xacə Altun) adlı bir tacirə İsfahanın məşhur tacirlərindən birini qoşaraq, Senata təşəkkür məktubu ilə Venesiyaya göndərmişdi. Onlar şahın göstərişini yazdığı kimi yerinə yetirmişdilər [11, s.404].

Tavernyenin bu qeydlərindən I Şah Abbasın bəzi hallarda yerli tacirlərdən üz döndərib, erməni tacirlərindən istifadə etməsinin də səbəbləri aydınlaşır. Tavernyeyə görə, onlar xristian olduqları üçün xristian ölkələrində daha yaxşı ticarət qura bilirdilər [11, s.405].

Bununla belə, təəssüflə qeyd etmək lazımdır ki, əlverişli vəziyyətdən dərhal istifadə edən erməni tacirləri Səfəvi məmləkətinin qiymətli sərvətlərinin xaricdə satışından böyük gəlir götürüb varlanırdılar. Belə tacirlərdən bəzilərinin kapitalı, Tavernyeyə görə, 20-40 min tümən arasında idi [11, s.405-406].

Ümumiyyətlə, I Şah Abbas Qərbi Avropa ölkələri, o cümlədən Venesiya Respublikası ilə normal ticarət əlaqələrinin saxlanması və mal dövriyyəsinin genişlənməsi üçün özündən asılı olan bütün iqtisadi tədbirləri həyata keçirməyə çalışırdı. I Şah Abbasın Avropa tacirlərinin Səfəvi məmləkətinə sərbəst gəlib-getmələri və onların təhlükəsizliyinin təmin olunması haqqında fərmanına uyğun olaraq, dövlət xəzinadarı Möhbəli bəy hicri 1023-cü ilin səfər ayının 9-da (22 mart 1614-cü il) Məmaliki-Məhrusənin (qorunan və şahın hakimiyyəti altında olan ölkə – N.S.) yollarını qoruyanlara (qorçulara) belə bir məzmunda məktub göndərmişdi: «Məmaliki-Məhrusənin yollarını qoruyanlara tacirlər və gedib-gələnlər barədə belə bir qərar vardır ki, onların hərəkətlərinə heç kəs mane olmasın, onlar istədikləri yerlərə gedə bilsinlər. Və buna görə də onlar dövlətin əbədiliyinə dua etsinlər. Onlar öz alış-verişləri ilə məşğul olsunlar. Xüsusilə Avropa tacirləri harada olmalarından asılı olmayaraq bizim ölkəyə tam arxayın gəlsinlər. Və onlara lazım olan köməklik, bələdçilik göstərsinlər və onları özlərindən razı salsınlar. Elə etsinlər ki, onların arxayın gediş-gəlişləri əhalinin də şikayətinə səbəb olmasın» [4, s.1940-1941].

1639-cu ildə sülh müqaviləsi bağlandıqdan sonra Səfəvi və Osmanlı dövlətləri arasında dinc münasibətlərin yaranması Azərbaycanın Aralıq dənizi limanları vasitəsilə Qərbi Avropa ölkələri, xüsusilə Venesiya, Genuya və başqa ticarət mərkəzləri ilə əvvəlki iqtisadi əlaqələrinin bərpa olunmasında mühüm rol oynamışdı. Nəticədə Səfəvilərin Toqat-Bursa karvan yolu ilə Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri yenidən canlanmışdı. Osmanlı dövləti Səfəvi tacirlərinə Aralıq dənizi limanlarından istifadə etməklə Venesiya və Genuya ilə ticarət əlaqələri saxlamalarına razılıq vermişdi [12, s.40-43].

## ƏDƏBIYYAT


1. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı 1986, 96 s.
2. Əhməd Tacbəxş. İran dər zəmane Səfəviyyə. Təbriz: Çapxane-ye Şəfəq, h. 416 s.

3. Иванов М.С. История Ирана с древнейших времен до конца XVIII века. Москва: Изд. Московского Университета, 1977, 487 с.
4. N. Fəlsəfi. Zendeqani-ye I Şah Abbas əvvəl c.V. Tehran: Çapxane-ye Məharət, h.1364, 1254-2102 s.
5. Səfərnameha-ye Veneziyan dər İran. Tərcome-ye Mənuçöhr Əmiri. Tehran: Enteşarate Xarəzmi, h. 1349, 450 s.
6. Путешественники об Азербайджане. т. I, состав. З. И. Ямролский. Под. Ред. Э.М. Шахмалыева. Баку: Изд. АН Азерб. ССР, 1961, 497 с.
7. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 300 s.
8. Layoş Fekete. Einfürunq in die perpersiseche palaoqrapie 101 persische doqumente. Budapeşt: Akademia Kiado, 1977, 594 s.
9. Книга Орудж-бека Байата Дон Жуана Персидского. Пер.с английского, введение и комментарий Октая Эфендиева, Акифа Фарзалиева. Баку: Язычы, 1988, 216 с.
10. Шахмалиева Э.М. О сотрудничестве армянского торгового капитала с венецианским в позднее средневековье (XVI века) – «Ученые Записки» АГУ им. С.М. Кирова, серия общественных наук. 1961, №1 с. 51-55.
11. Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri. İsfahan:Çapxane-ye Pərvin, h. 1336, 719 s.
12. Bax: Bayramlı Z., Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"-sində. Bakı: "Azərbaycan" nəşriyyatı 2000, 174 s.

**СУЛЕЙМАНОВ НИЗАМИ МАМЕД ОГЛЫ»**

## Торговые отношение Сафавидов с Венецией

В статье показаны взаимные политические и экономические отношения с Республикой Венеции государства Сефевидов, которые несут в себе фиксированный характер. Влияние военно-политических событий и изменения в политике связи с между -народном положением были проанализированы в разное время в зависимости от ситуации. Во время Шах Исмаил I появление во дворце Сефевидов из Венеции купцов и посланников, при Шах Аббаса I правительства к отношению с венецианским делегатом были проанализированы на основе разных источников и дневников путешественника. В торговых отношениях между Венецией и государства Сефевидов особое внимание уделялось оборота и целенаправленный ассортимент продукции. Также в статье говорится что, торговые отношения между Венецией и государства Сефевидов очень беспокоили Англию.

**NIZAMI SULEYMANOV MAMED**

## Trade relations the Safavids with the Venice

In the article political and economic relations of mutual economic relations the Safavid state's with the Republic of Venice, which carry a fixed nature, the influence of the military-political developments and changes in were analyzed at different times depending on the

situation. Shah Ismail I, Safavid palace the merchants of the ambassador in Venice.Venice during the rule of Shah Abbas I, with emphasis interactions have been studied on the basis of existing sources and travel agendas.

Trade relations between Venice and the Safavid state turnover and focused range of products. The article of trade relations with the Safavid state Venetian merchants were spoken in England to worry about.

***Rəyçilər:t.e.d. V.Həsənov, t.e.d. S.Məmmədov.***
***Azərbaycan Dövlət İqtisad Universitetinin "Azərbaycan tarixi" kafedrasının 13 snetyabr 2012-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (protokol N 01 )***